# Təsviri sənətdə akvarel



**Azərbaycanda akvarel orta əsrlərdən məlumdur. Ondan dini məzmunlu və poetik əsərlərin bədii tərtibatında istifadə edilmişdir. Azərbaycan təsviri sənət tarixində kitab və onun tərtibatı, qrafika və rəngkarlığın formalaşmasında misilsiz rolu olmuşdur.**

**Kitab rəsmləri, miniatürlər indi də rəssamların yaradıcılıq fəaliyyətinin genişlənməsinə təkan verir. Azərbaycan ərazisində V-VII əsrlərdə alban əlifbası ilə dini-elmi və bədii əsərlər yazılmışdır. Azərbaycan dilində bizə məlum olan ən qədim əlyazma kitablar XIV əsrə aiddir (Nəsiminin, Qazi Bürhanəddinin "Divan"ları və s.). "Kitabi-Dədə Qorqud"un XV əsrə aid əlyazması dövrümüzədək gəlib çatmışdır.**

Texniki tərəqqi, kəşflər, kitab nəşrinin inkişafına, genişlənməsinə imkan vermişdir. Qədim əlyazmalara çəkilən kiçik ölçülü kitab rəsmləri, miniatürlər Azərbaycan təsviri incəsənətində emosional təsir qüvvəsi, əsrarəngiz gözəlliyə malik bədii forması ilə dünya şöhrəti qazanmışdır. XIII-XVII əsrlərdə yüksək sənət əsərləri yaratmış Azərbaycan rəssamlarının əsərləri Qərbi Avropa və Amerika muzeylərinin salonlarını bəzəyir.

XIII əsrin axırlarında və XIV əsrin əvvəllərində Azərbaycanın bir çox şəhərlərində iqtisadiyyatın və ticarətin inkişafı nəticəsində mədəni tərəqqi başlamışdır. Təbriz şəhərində kitab tərtibatı, xəttatlıq və rəssamlıqla məşğul olan bədii emalatxanalar vardı. Burada çalışan rəssamlar Təbriz miniatür məktəbini yaratmışlar. 1306 - 1314-cü illərdə məşhur tarixçi Rəşidəddinin "Cameəttəvarix" kitabının təsvirləri burada yaranmışdır. Təbriz, eləcə də Bakıda və Şamaxıda fəaliyyət göstərən Pir Seyid Əhməd Qovməddin Mocəllidi Təbrizi, Xocəli Mosəvvir, Əbdülbaqi - Əl Bakui bu sənətin ən yüksək nümunələrini yaratmışdılar. XVI əsrdə yaşamış məşhur Azərbaycan rəssamları Soltan Məhəmməd, Mir Seyyid Əli, Müzəffər Əli, Mirzə Əli və başqaları.

1539-1543-cü illərdə Nizaminin "Xəmsə"sinə çəkdikləri miniatürlər Britaniya muzeyində ən gözəl və qiymətli eksponat kimi saxlanılır. XVI əsrdə bir sıra Şərq ölkələrində də miniatür sənəti inkişaf etməyə başlamışdır. Azərbaycan rəssamları Vəlican və Şahqulu Türkiyədə, Mir Seyyid Əli və Əbdül Səməd Hindistanda və Monqol rəssamlıq məktəbinə başçılıq etmişlər.

XVII-XIX əsrlərdə Məhəmməd Rza Təbrizi, Əli Rza Təbrizi, Əvəz Əli, Nəcəfqulu Məşədi Həmid oğlu, Xurşidbanu Natəvan, Mirkəlam kimi sənətkarlar təsviri incəsənətin zənginləşdirilməsində əsaslı xidmətlər göstərmişlər. XIX əsrdə Azərbaycan incəsənətində realist meyllər meydana gəlir. Bu dövrdə Abbas Hüseyn, Mirzə Qədim və Mir Möhsün Nəvvabın akvarellə yaratdıqları əsərlər Azərbaycan qrafika və rəngkarlıq sənətinin inkişafına əvəzsiz töhfəsi olmuşdur. Onların əsərləri milli koloritlə, təkrarsız ifadə gözəlliyi ilə fərqlənir.

XX əsr milli təsviri sənətimizin inkişafında önəmli yer tutur. 1906-cı ildə görkəmli yazıçı Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və nasirliyi ilə Tiflis şəhərində nəşr olunan satirik "Molla Nəsrəddin" jurnalı təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından çox uzaqlarda Kazan, Həştərxan, Orenburq, Krım, Tehran, Təbriz, Ərzurum, İstanbul, Qahirə və başqa ölkələrin ədəbiyyatında və təsviri incəsənətində demokratik, realizm meyllərinin güclənməsində, mədəni tərəqqinin genişlənməsində misilsiz xidməti var. "Molla Nəsrəddin" jurnalının mədəni həyatımızın və ədəbi ictimai fikrimizin inkişafında, milli özünüdərkin bərqərar olunmasında böyük əhəmiyyəti var. "Molla Nəsrəddin" jurnalı Oskar

Şmerlinq, İosif Rotter, Əzim Əzimzadə kimi rəssamların adı ilə bağlıdır. Əzim Əzimzadənin bədii irsi Azərbaycan təsviri sənət tarixində parlaq iz qoymuşdur. Ə. Əzimzadə 40 illik yaradıcılıq fəaliyyəti ərzində 3000-dən artıq satirik rəsm, illüstrasiya, plakat, səhnə dekorasiyası, geyim eskizi (tipajlar), portretlər, mənzərələr, məişət janrında əsərlər yaratmışdır. Mənalı, əlvan və rəngarəng əsərlər akvarel üslubunda işlənilib.

1919-1922-ci ildə M. Ə. Sabirin, C. Məmmədquluzadənin, Ə. B. Haqverdiyevin, H. Sarabskinin əsərlərinə, onun akvarel üslubunda çəkdiyi rəsmlər, illüstrasiyalar diqqəti cəlb edir. Onun əsərlərində ictimai tendensiya, milli kolorit çox güclüdür. "Molla Nəsrəddin" jurnalı bir çox gənclərin yaradıcılığı üçün hədsiz faydalı təcrübə və ilham mənbəyi olmuşdur. Bunlardan biri Qeysər Kaşiyeva Seyidbəyli (1893-1973) rəssamlıq təhsili almış ilk azərbaycanlı qadındır. O, 1907-1908-ci illərdə Tiflisdə "İncəsənəti təbliğ edən cəmiyyət"in rəssamlıq studiyasında, məşhur alman rəssamları Riçard Zommerdən, Oskar Şmerlinqdən rəssamlıq sənətini yüksək səviyyədə öyrənmişdi. Q. Kaşiyeva bu dövrdə təşkil olunmuş rəssamlıq sərgilərində iştirak etmiş və müvəffəqiyyətlər qazanmışdır.

Onun portret və mənzərə janrında akvarel rəsmləri məharətlə yaradılmışdı. Yaradıcılığında portret və mənzərə janrlarına (akvarel texnikasında) üstünlük verən Azərbaycan təsviri incəsənət tarixində fəxri yer tutan Bəhruz (Şamil) Kəngərli Şirəlibəy oğlu Gürcüstanda Tiflis şəhərində məşhur gürcü rəssamı Q. Qabaşvilli, A. Mevrelişvili, "Molla Nəsrəddin" jurnalının rəssamları O. Şmerlinq və başqalarının rəhbərliyi altında 1910-1915-ci illərdə "İncəsənətin təşviq cəmiyyəti" nəzdində təşkil edilmiş rəssamlıq məktəbində təhsil almışdır. O dövrdə B. Kəngərlinin əsərləri kiçik ölçülüdür. O, gözəl müşahidə qabiliyyəti, peşəkar, rəssamlıq texnikası, təsvir metodu, dərin hissetmə bacarığına malik idi. Buna "Qara dəniz", "Ayın tutulması", "Qaçqınlar" seriyası və s. kimi akvarel əsərlərini misal göstərmək olar.

Mirzə Cəlilin yaratdığı "Molla Nəsrəddin" jurnalının ənənələri zəminində yetişən Xəlil Musayev, İsmayıl Axundov, Qəzənfər Xalıqov, Nəcəfqulu, Hüseyn Əliyev, Ziya Kərimbəyli, Reyhan xanım Topçubaşova və başqa istedadlı rəssamlar akvarel üslubunda gözəl nümunələr yaratmışlar. Bu dövrdə fəaliyyət göstərən rəssamların yaradıcılığı bir tərəfdən milli ənənələrə, digər tərəfdən rus realist rəssamlıq məktəbinə əsaslanaraq formalaşıb inkişaf etmişdir. Azərbaycanda XX əsrin 20-ci illərinin başlanğıcında rəssamlıq məktəbi fəaliyyət göstərməyə başlayır. İlk yetirmələri E. Rzaquliyev, İ. Quliyev, Q. Xalıqov, İ. Axundov, H. Mustafayev, S. Salamzadə, A. Qaziyev, qrafika və heykəltəraşlıq üzrə ali təhsillərini Rusiyanın Moskva və Leninqrad (indiki Sankt-Peterburq) şəhərlərində almışdılar. 30-cu illərdə H. Haqverdiyev, T. Tağıyev, K. Xanlarov, Ə. Kərimov, F. Əbdürrəhmanov, C. Qaryağdı, L. Kərimov və başqa rəssamlarımız mədəniyyətimizin ən yaxşı ənənələrini yaşadaraq, dolğun bədii formalı yaradıcılığı ilə Azərbaycan incəsənəti tarixinə daxil olmuşdular.

1940-1950-ci illərdə görkəmli rəssamlarımız S. Salamzadə, M. Abdullayev, T. Tağıyev, H. Haqverdiyev, A. Cəfərov, Q. Seyfullayev kimi rəssamlar akvarel texnikasını zənginləşdirmiş, qiymətli əsərlər yaratmışlar. 50-ci illərdən başlayaraq T. Salahov, V. Səmədova, T. Nərimanbəyov, N. Əbdürrəhmanov, N. Qasımov, E.Rzaquliyev, S. Bəhlulzadə qrafik rəssamlarımız Y. Hüseynov, R. Babayev, E.Şaxtaxtinskaya, A. Hacıyev, S. Əlisəttar, Ç. Əziz Məmməd oğlu, A.S.İbrahimov, F. Ə. İsmayılov, A. B. Abdullayev, R. Hüseynov, E. Rzaquliyev, D. Kazımov, E.Avalov və başqaları akvarel üslubunda dəyərli əsərləri ilə onu zənginləşdirmiş, ölkənin hüdudlarında belə şöhrət qazanmışdılar.

Akvarel üslubuna bir çox görkəmli qrafik rəssamlar N. Axundov, N. Babayev, R. Mehdiyev kitab qrafikası və plakat sahəsində çalışan O. Sadıqzadə, E. Şaxtaxtinskaya, K. Kazımzadə, H.Nəzərov, Q. Qasımovun yaratdıqları əsərlər yüksək sənətkarlıq nümunələridir. Azərbaycan təsviri sənətin qrafika, heykəltəraşlıq, rəngkarlıq, dekorativ tətbiqi incəsənətin görkəmli nümayəndələri akvarel texnikasına müraciət etmiş, maraqlı, dəyərli əsərlər yaratmışlar. Bu rəssamlar ölməz mədəniyyət xadimlərinin tükənməz sənət xəzinəsindən faydalanmış, onların bədii-estetik irsindən yararlanaraq rəssamlıq sənətimizin təşəkkülü və inkişafı naminə fəaliyyət göstərmişlər.

Əsrlər boyu dünyanın bir çox görkəmli rəssamları akvarel texnikasına müraciət etmişlər. Ağ boya qarışdırılmamış qeyri-şəffaf akvarellə işlənən rəsm əsərləri qədim, müasir və antik dövr incəsənətində, eləcə də Avropa, Asiya ölkələrində mövcud idi. Ağ boya qarışdırılmamış (təmiz) akvarel XV əsrdə tətbiq olunmuşdu.

XV-XVII əsrlərdə akvareldən əsasən qravür, çertyoj, tablo, freska eskizlərinin işlənməsində istifadə olunurdu. Əsrlər boyu akvarelin işlənmə üslubları dəyişirdi, yəni təsvir imkanları yaranırdı. Orta əsrlərdə akvareldən kitab tərtibatında geniş istifadə olunurdu. İntibah dövrünün rəssamları akvarel üslubuna mütəmadi müraciət etmişlər. XV əsrdə alman təsviri incəsənətinin İntibah dövrünün ən görkəmli nümayəndəsi A. Dürer çoxlu gözəl akvarel əsərlər yaratmışdır. Bu mənzərələr bitki və heyvan rəsmləridir. Hollandiya və Flandriyada akvarel XVII əsrlərdə geniş tətbiq olunmağa başladı. Hollandiyada mənzərə janrının inkişafı dövründə akvarellə açıq səma altında, təbiətin qoynunda işləmə imkanları müəyyən edildi. Bu əsərlərdə insanı düşündürən və təsir edən əsas cəhət mənzərə təsvirlərindəki realizm qüvvəsi və lirikadır. Bu dövrün rəssamları mənzərədə işıq, hava təsvirinə xüsusi əhəmiyyət verirdilər. Mənzərədən başqa portret və məişət janrında da dəyərli əsərlər yaradılmışdı. XVII əsrin II yarısı İngiltərədə A. C. Kozenslər, T. Görtin, Fransada J. O. Fraqonar, Y. Rober, Rusiyada F. A. Alekseyev, M. M. İvanov, K. P. Bryulov, A. A. İvanov akvareldə qiymətli əsərlər yaratmışlar. A. A. Kozenslərin, T. Görtinin mənzərə janrında olan əsərlərində nəm kağız üzərində işləmə üsulundan istifadə olunmuşdu. Kağız qabaqcadan müəyyən ümumi bir rəng çaları ilə örtülürdü. İşlənən boyaların rəngi bu rəng çalarına uyğun çəkilirdi.

Avropada ilk dəfə olaraq yalnız XIX əsrdə ingilis rəngkarları tərəfindən akvarelin yeni kolorit imkanları aşkarlanaraq, ona böyük dəyər verildi. Bu dövrdə akvarel əsərlərindən ibarət ilk sərgilər təşkil olundu. İngiltərə akvarelistləri təbiətin müxtəlif anlarına, perspektivinə, açıq səma altında hava durumunun, işığın, insanın təbiətlə harmonik əlaqəsinin təsvirinə xüsusi əhəmiyyət verirdilər. Böyük irs qoymuş bu məktəbin ən parlaq nümayəndələri U. Terner, D. Konstebli misal çəkmək olar. U. Terner yaratdığı mənzərə əsərlərinə görə London mənzərəsinin müğənnisi adlandırılmışdı.

Akvarel sənətinin təşəkkül etməsində və inkişafında gözəl mənzərələr yaratmış rəngkarlar U. Kellou, C. Ç. Kotmen, R. Baninqtonun böyük rolu olmuşdur.

XIX əsrin II yarısında İtaliyada akvarelin quru kağız üzərində çoxqatlı, sıx üslubda işlənməsi üsulu yarandı. Bu üsulun xarakterik cəhəti işıq, kölgənin və rənglərin ağ kağızla ifadəli və təzadlıdır. XIX əsrdə akvarel texnikasında Fransada E. Delakrua, O. Domye, P. Qavarin, Almaniyada A. Mişel, Rusiyada İ. E. Repin, V. İ. Surikov, M. A. Vrubel, İspaniyada Fortuni kimi tanınmış fırça ustaları dəyərli əsərlər yaratmışlar. İmpressionizmin nümayəndələri Uonkinq Yan Bartold, Pol Qogen və başqaları, Neoimpressionizmin görkəmli nümayəndəsi A. Matissin əsərləri akvarel texnikasını zənginləşdirməyə xidmət etmişdir. Rusiyada XVIII əsrin əvvəllərində akvarel texnikasında miniatür portret janrı inkişaf etmişdi.

Akvarel təsviri sənətinin müstəqil növü kimi XIX əsrdə tətbiq olunmağa başlandı. Rus rəssamlarından P. F. Sokolov, K. P. Bryulov, A. A. İvanov akvarelin geniş imkanlarını göstərməklə onun inkişafına böyük təsir göstərmişlər. İ. E. Repin, V. İ. Surikov, M. A. Vrubel, İ. İ. Levitan, V. A. Serov, V. D. Polenov, İ. N. Kramskoy akvarel sahəsində işlənən gözəl sənət nümunələri yaratmışlar.

**Rusiyanın dəzgah akvarel rəngkarlığının görkəmli rəssamları D. N. Kardovskiy, E. E. Lansere, A. P. Ostroumova-Lebedeva, A. V, Fonvizin, S. V. Gerasimov, P. P. Konçalovskiy, A. A. Deyneka, N. A. Tırsa, E. Sprinqis, Kuknnikslər, O. Q. Vereyskiy və başqalarının əsərləri yüksək sənətkarlıq, bədiilik, ifadəlik, kamillik nümunəsi kimi incəsənət tarixinə daxil olmuşdur.**

**Vəfa ALLAHYAROVA,**
***Azərbaycan dövlət rəssamlıq akademiyasının müəllimi***

18812

## Ədəbiyyat

1. Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası 1976. Bakı, I cild
2. Azərbaycan SSR-nin İncəsənəti. "Avropa" nəşriyyatı. Leninqrad 1972.
3. Mürsəl Nəcəfov. "Əzim Əzimzadə". Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1973.
4. Mürsəl Nəcəfov. "Azərbaycan karikaturaçı rəssamları". Bakı, 1972.
5. Киплинг. Д. И. "Техника живописи". Москва. 1960.
6. Ревякин П. П. "Техника акварельной живописи". Москва 1959
7. Фармаковский М. В. "Акварель, ее техника, реставрация и консервация". Л. 1950.
8. Кольнинг А. К. "Акварельная живопись". М. 1968.
9. А. А. Унковский. "Живопись, вопросы калорита". Москва, "Просвещение", 1980.
10. М. А. Немировская. "Акварель и рисунок". Москва, "Изобразительное искусство", 1984.
11. "Мастера мировой живописи". Энциклопедия мирового искусства. Белгород. 2005.
12. Джо Френсис Дауден. "Рисуем воду акварелью". "Кристина - Новый век". 2004.
13. Sabir Gəncəli. "Qadın, gözəllik və ülviyyət". Bakı, 2001.
14. İsrafil İsrafilov, Gülyana Məmmədova, Elmira Qasımova. "Bəhruz Kəngərli" "Çaşıoğlu", 2005.
15. "Azərbaycan miniatürləri". "İşıq", Bakı, 1979.

**Резюме**

Существует несметное количество прекрасных произведений, исполненных акварелью. Культура непосредственно связана с искусством, и акварель является е, неотъемлемой частью. Все богатство и очарование культуры воплощается в изобразительном искусстве. Подобно тому, как ствол дерева со временем обрастает кольцами, также и культура обогащалась из века в век, передавая опыт минувших лет и ещ, более разбивая ее.

**Summary**

There is an interminable amount of dazzling works of art, executed in water colours. The culture is tightly linked to the fine arts and water colors are its integral part. All riches of culture are expressed in fine arts/ Just as a branch of the tree acquires rings, as well as culture was enriched from century to century, transferring the experience of past times and even more developing it.



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası